ELM VƏ ALİ TƏHSİL ÜZRƏ
DÖVLƏT AGENTLİYİ

# Malayziya Hökumətinin 2024-2025-ci tədris ili üçün təqaüd proqramı



Malayziya beynəlxalq təqaüdü 2024-2025-ci itədris ili üzrə beynəlxalq tələbələrə Malayziyada qabaqcıl təhsil almaq imkanı təklif edir.

**Ölkə:** Malayziya
**Universitetlər:** Malayziya universitetləri
**Maliyyə:** Malayziya Təhsil Nazirliyi
**Təhsil səviyyəsi:** Magistratura, doktorantura

**Təqaüd proqramı çərçivəsində qarşılanan xərclər:**

- Tam təhsil haqqı;
- Aylıq yaşayış müavinəti RM 1500;
- Malayziyaya gediş-dönüş biletləri;
- Tibbi/sağlamlıq sığortası;
- Dissertasiya və nəşr haqqı (Doktorantura);
- Konfranslarda iştirak və məqalə çapı xərcləri (Doktorantura).

**İxtisaslar:**

- Təhsil;
- İncəsənət və humanitar elmlər;
- Sosial elmlər, jurnalistika və informasiya;
- Biznes, idarəetmə və hüquq;
- Təbiət elmləri, riyaziyyat və statistika;
- İnformasiya və kommunikasiya texnologiyaları;
- Mühəndislik, istehsalat və inşaat;
- Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və baytarlıq;
- Sağlamlıq və rifah (Tibb, tibb bacısı və əczaçılıq daxil deyil).

**Əsas meyarlar:**

- Tam ştatlı magistratura və doktorantura tələbəsi olmaq;
- Hazırda Malayziyanın dövlət universitetlərində və seçilmiş özəl ali təhsil müəssisələrində təhsil müddətinin bitməsinə ən azı iki (2) semestr qalmış əyani təhsil;
- Magistraturaya müraciət edənlər üçün yaş 40-dan çox olmamalıdır;
- Doktorantura üçün yaş 45-dən çox olmamalıdır;
- Magistratura səviyyəsi üçün müraciət edənlər bakalavr dərəcəsində 3.0 GPA-ya malik olmalıdırlar;
- Doktorantura səviyyəsi üçün müraciət edənlər magistr dərəcəsi zamanı 3.0 GPA-ya və ya əla akademik nəticələrə malik olmalıdırlar;
- Ərizəçilər minimum 1000 sözdən ibarət ***tədqiqat təklifi*** yazmalıdırlar.

**İngilis dili biliyi:**

IELTS - 6.0 və ya daha yüksək;

TOEFL - TOEFL kağız əsaslı testdə (PBT) ümumi 550 və ya daha yüksək bal toplamaq.

Alternativ olaraq, əvvəllər əldə edilmiş təhsil dərəcəsi üçün tədris dili ingilis dilində olmalıdır.

**Tələb olunan sənədlər:**

- Ərizə forması ***( https://biasiswa.mohe.gov.my/INTER/index.php )***
- Pasport;
- Akademik transkriptlər və sertifikatlar;
- İngilis dili biliyi testinin nəticələri;
- 2 ədəd tövsiyə məktubu;
- Tədqiqat təklifi (Doktorantura namizədləri üçün);
- CV;
- Universitetdən qəbul məktubu;
- Tibbi arayış.

***Qeyd:*** Bütün sənədlərin ingilis dilində olması tələb olunur, əgər onlar ingilis dilindən başqa hər hansı dildədirsə, sizdən sənədlərin tərcümə-təsdiq edilmiş surətlərini təqdim etməyiniz tələb olunur.

***Son müraciət tarixi:***

Malayziya beynəlxalq təqaüd proqramına müraciət etmək üçün **son müraciət tarixi *26 iyun 2024-cü ildir.***

***Əlaqə:***

***Mobil:*** *+603-8888 1616 / +603-8870 6323 / +603-8870 6346 (09:00 – 16:30 Malayziya vaxtı/ Bazar ertəsi - cümə)*

***E-mail:*** ***international@mohe.gov.my***